# Türk dünyasının möhtəşəm gələcəyinə zəmin yaradan lider



***Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri, şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir. Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir. Azərbaycan qardaşım İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə, inşallah, dastan yazmaqda davam edəcək.***

***Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıda keçirilən Zəfər paradındakı nitqindən 10 dekabr 2020-ci il.***

Bu gün cənab İlham Əliyevin ilk dəfə prezident seçilməsinin növbəti ildönümünü qeyd edirik. İnanıram ki, geridə qalan 18 ilin uğurları saysız-hesabsız olduğuna görə bu mövzuda mülahizələrini qələmə alanlar çox olacaq. Odur ki, mən son 18 ildə ölkədə həyata keçirilən hərtərəfli islahatlardan, regionların sosial-iqtisadi inkişafından, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməyimizdən, Qoşulmama Hərəkatına sədrliyimizdən, dünyanın əlli ən güclü ordusundan birini yaratmağımızdan, "kosmik klub"un üzvü olmağımızdan, Bakının beynəlxalq tədbirlərin keçirildiyi əsas məkanlardan birinə çevrilməsindən söz açmıram.

Mən bu yazıda əsas fikri İlham Əliyevin Türk dövlətlərinin əməkdaşlığına, türkdilli ölkələrin iş birliyinin yaradılmasına və ümumiyyətlə, türk dünyasının möhtəşəm gələcəyinə zəmin yaradılmasında iştirakına yönəltmək istəyirəm. Çünki İlham Əliyev hələ Prezident seçilməzdən xeyli əvvəl – Azərbaycan Parlamentinin AŞPA-dakı daimi nümayəndə heyətinə sədrlik etdiyi günlərdən bu istiqamətdə qətiyyətli addımlar atırdı. Məhz deputat İlham Əliyevin təşəbbüsü ilə bu beynəlxalq qurumdakı Türkiyə və Azərbaycan nümayəndə heyətlərinin birgə fəaliyyət göstərilməsi ənənəsi yaradılmış və həmin birlik nəticəsində AŞPA-nın Ermənistanı işğalçı dövlət kimi tanıyan sənədi qəbul edilmişdir.

2003-cü ilin 15 oktyabrından sonra isə Prezident İlham Əliyev beynəlxalq aləmdəki Azərbaycan və Türkiyə diaspor təşkilatlarının birlikdə fəaliyyət göstərməsi təşəbbüsü ilə çıxış etmiş və bu, öz müsbət nəticələrini vermişdir. Nəticə göz qabağındadır.

Yeri gəlmişkən, ötən il oktyabrın 15-də – müharibənin qızğın çağında Türkiyənin NTV telekanalına müsahibə verən İlham Əliyev israr edirdi ki, bu münaqişənin həllinə hansısa müdaxilə ediləcəyi təqdirdə və ya döyüşlərin hərbi müstəvidən siyasi müstəviyə, siyasi prosesə çevrilməsi baş verərsə, Türkiyə mütləq prosesin içində olmalıdır: "Biz çox açıq və dəqiq mövqeyimizi bildirdik ki, Türkiyə mütləq bu işlərdə olmalıdır. Əgər olarsa, o zaman bu döyüşlər daha tez bir vaxtda dayanacaq və sülh prosesi başlayacaq. Mən onu da bildirmişdim ki, faktiki olaraq Türkiyə prosesdə var. Çünki dünən cənab Ərdoğanın və cənab Putinin danışığı bunu göstərir. Eyni zamanda, ondan əvvəlki günlərdə Türkiyənin və Rusiyanın xarici işlər nazirlərinin, müdafiə nazirlərinin də telefon danışıqları olub. Onlar Qarabağ mövzusunu müzakirə edirlər".

***Ulu öndər Heydər Əliyevin xilas edib əbədilik qazandırdığı gənc müstəqil Azərbaycanın gündən-günə artan uğurları, hərtərəfli nailiyyətləri ötən ilin payızındakı 44 günlük Vətən müharibəsinin nəticəsi ilə daha da zənginləşdi. Qalib dövlətimiz dünyanın bütün ölkələrində bütün bunlardan söz açılmasına nail oldu. Bu bir faktdır ki, bu uğurlarımızın təməli ulu öndərin ölkədə siyasi hakimiyyətə qayıtması ilə qoyulmuşdu. Həmin möhtəşəm özül üzərində vüsət alan tərəqqi və inkişaf mərhələsi isə 2003-cü il oktyabrın 15-dən sonra başlandı.***

Dövlət başçımız başqa bir müsahibəsində isə demişdi ki, Türkiyə mütləq bu münaqişənin həlli prosesində olmalıdır: " Hansı statusda olacaq, bu, texniki məsələdir. De-fakto artıq Türkiyə var. Onsuz da Türkiyə Minsk qrupunun üzvüdür... Biz mövqeyimizdə qalırıq və əlbəttə, ümid edirik ki, bu məsələ tez bir zamanda masa arxasında həll edilsin. Türkiyə mütləq bu işlərdə fəal rol oynamalıdır və əminəm ki, oynayacaqdır".

Prezident İlham Əliyevin Türk dünyasının iş birliyinin formalaşdırılması istiqamətində atdığı növbəti addımlardan biri də 2009-cu ilin oktyabr ayında Naxçıvanda reallaşmışdı. Məhz Naxçıvan Bəyannaməsi ilə yaradılan Türk Şurası ölkələrimiz və xalqlarımız arasında əlaqələrin inkişafına mühüm töhfə vermişdir.

Dövlət başçımız Naxçıvan Bəyannaməsindən, təxminən, dörd il sonra –2013-cü il avqustun 16-da TDƏŞ-in Qəbələ Sammitində böyük uzaqgörənliklə söyləmişdir ki, XXI əsr Türk əsri olmalıdır: "Bu gün bizim ölkələrimiz uğurla və inamla inkişaf edir. Bu gün dünyanın müxtəlif yerlərində, o cümlədən, əfsuslar olsun ki, İslam dünyasında proseslər müxtəlif istiqamətdə gedir, qarşıdurmalar, vətəndaş müharibələri, digər xoşagəlməz hallar baş verir. Bizim diyarlarımızda, türk diyarında isə sabitlik, inkişaf hökm sürür. Bu, böyük nailiyyətdir, böyük sərvətdir. Xüsusilə nəzərə alsaq ki, dünyada hələ də maliyyə və iqtisadi böhran davam edir, bizim ölkələrimizin uğurlu inkişafı, ölkələrdə mövcud olan sabitlik və tərəqqi hesab edirəm ki, xalqlarımızın böyük nailiyyətidir, dövlətlərimizin böyük sərvətidir. Biz bu sərvəti qorumalıyıq, birgə səylərlə qorumalıyıq, inkişaf etdirməliyik. XXI əsr türk dünyasının əsri olmalıdır".

Fəxrlə və qətiyyətlə deyə bilərik ki, həmin iş birliyi regiondakı proseslərin Azərbaycanın xeyrinə dəyişməsində az rol oynamamışdır. Yadımdadır, bu il martın 31-də TDƏŞ-in videokonfrans formatında keçirilən qeyri-formal zirvə toplantısında çıxış edən Qazaxıstanın birinci Prezidenti – Elbası, Türk Şurasının fəxri sədri Nursultan Nazarbayev İkinci Qarabağ müharibəsindəki şanlı qələbəmiz münasibətilə Azərbaycan Prezidentini təbrik edərək demişdi: "Bu gün mən həm də Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevi təbrik edirəm. Xüsusilə qeyd etmək istəyirəm ki, ərazi bütövlüyünün bərpa edilməsi məsələsində Türkiyə önəmli rol oynamışdır". Yeri gəlmişkən, həmin gün "Türk dünyasının gələcəyi–2040" adlı sənədin hazırlanmasını təklif edilmişdi və həmin istiqamətdə işlər davam edir.

Nursultan Nazarbayevin "Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi məsələsində Türkiyə önəmli rol oynamışdır" – ifadəsinin təsdiqinə dövlət başçımızın nitqlərində də tez-tez rast gəlirik: "Biz müharibənin ilk günündən qardaş Türkiyədən böyük dəstək aldıq. Mənim əziz qardaşım, Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan sentyabrın 27-də müharibə başlanan gün açıq şəkildə Azərbaycana dəstək ifadə etdi. Bu siyasi və mənəvi dəstəyin çox böyük əhəmiyyəti var idi. Əziz qardaşım bildirmişdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır... Bu dəstəyə görə qardaş Türkiyəyə və onun hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğana dərin təşəkkürümü bildirmək istəyirəm. Müharibə dövründə və müxtəlif dövrlərdə Prezident Ərdoğanın və Türkiyənin digər rəsmi şəxslərinin çoxsaylı bəyanatları məsələnin həllində xüsusi önəmli rol oynamışdır".

Mən burada dövlət başçımızın Türk dünyasının möhtəşəm gələcəyinə verdiyi tarixi töhfələrdən daha ikisini yada salmaq istəyirəm. Birincisi: 2014-cü il aprelin 24-də Praqada Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramının 5 illiyinə həsr olunmuş sammitdə Ermənistan prezidenti Serj Sarkisyan Türkiyənin ünvanına növbəti cəfəngiyyatları səsləndirmişdi. Bu qatil siyasətçinin dilinin açılmasının əsas səbəbi isə Türkiyə rəsmilərinin həmin tədbirdə iştirak etməməsi idi. Amma erməni bir məsələni unutmuşdu... Tədbirdə çıxış edən Prezident İlham Əliyev demişdi: "Bu gün təəssüf ki, Ermənistan prezidenti burada fürsətdən istifadə edərək Türkiyəyə yenidən hücum edir. Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam və Türkiyə –Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm".

Dövlət başçımızın Serj Sarkisyana cavabı ilə bağlı Türkiyənin "Milliyet" ("Zirvə görüşündə Sarkisyan Türkiyəni günahlandırdı, Əliyev dərhal sərt cavab verdi"), "Radikal" ("Sarkisyanın Türkiyəni tənqid etməsinə Əliyevdən sərt təpki"), "Akşam" ("Türkiyə nümayəndələri burada yoxdursa, mən varam"), "Posta" ("Əliyevdən Ərdoğana dəstək"), "Cumhuriyet" ("Türkiyəni tənqid edən Sarkisyana Əliyevdən sərt cavab"), "Hurriyet Daily News" ("Praqa Sammitində Sarkisyan Türkiyəni tənqid edərkən Əliyev rəsmi Ankaranın müdafiəsinə qalxdı"), qəzetlərində çoxsaylı xəbər və məqalələr dərc olunmuşdu. Həmçinin "Yeni Şafak", "Sözcü", "Star" qəzetləri və digər mətbu orqanları da Prezident İlham Əliyevin qətiyyətli mövqeyindən bəhs etmişdilər.

Qeyd etmək istədiyim ikinci fakt türk dünyasında on milyonlarla insanın qəlbini dağa döndərmiş, gözlərini sevinc yaşları ilə bəzəmişdi. Həmkarlarımızın yazdığı kimi, bu addımı ya Heydər Əliyev ata bilərdi, ya da İlham Əliyev.

Məlum olduğu kimi, 2016-cı ildə Bakıda Azərbaycan – Türkiyə Strateji Əməkdaşlıq Şurasının V iclası keçirilməli idi. Qardaş ölkədə baş verən məlum qanlı terror hadisələrinə görə cənab Ərdoğan Bakıya gələ bilmədi. Azərbaycan Prezidenti isə təklif irəli sürdü ki, onda həmin iclas Ankarada keçirilsin: "O gələ bilmirsə , mən gedərəm!"

... Azərbaycan Prezidenti İlham Əliyev onu Türkiyə Prezidentinin Sarayına aparan avtomobildən düşən kimi türkiyəli həmkarını bir neçə dəfə qucaqladı, mətbuat konfransının sonunda isə Türkiyə Prezidentini bağrına basdı. Bəzi ekspertlərin fikrincə, dövlətimizn başçısı bütün varlığı ilə də Azərbaycanın Türkiyənin yanında olduğunu göstərdi.

Prezidentlərin səhnədə bir-birinə sarılmasını izləmək isə xüsusilə təsirli idi. Mən o səmimiyyəti Bakıda keçirilən Zəfər paradında da gördüm.

Bu isə o deməkdir ki, Prezident İlham Əliyev təkcə Azərbaycanın sabahı naminə çalışmır. O, türk dünyasının da möhtəşəm gələcəyinə zəmin yaradılmasına sidq ürəklə xidmət edir. Çünki bu əsr bizim əsrimizdir!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***